

Əhməd Hanı
25 avqust 2004-cü il

# *Qürbətdən məktub*

***Hörmətli müəllim Ramazan Qafarlı!***

*"Xəmsə" jurnalının yola düsüb yeriməyi mübarək olsun!.. Yolunuz, istəkləriniz, dilimiz və... daim yaşıl qalsın. Mən heç zaman özümü bacarıqlı şair bilməmişəm, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri və cənabınız kimi İnsanların öyrəncisi olmuşam.*

*1970-ci ildə yay fəslində Guney Azərbaycanda yerləşən Dizəc kəndində dünyaya göz açdım. Bir gün əlimdən yapışıb dedilər: «Gedirik!..»*

*9-10 yasım var idi ki, məni Azərbaycandan ayırdılar. Lakin cismim ayrilsa da, ürəyim ayrılmadı. Vətəndə dilimiz yasaq olunmuşdu, kimsə türkcə danışsaydı, iki qiran verməli idi. Pəhləvi rejimi çalışırdı ki, Azərbaycanı butun sahədə dalda saxlasın. Azərbaycanlıları cəlayi-vətən etmək bu işlərin biri idi.*

*Bu səbəbdən qürbət həyatım başlandı və mən bir qəfəsdəki quş kimi özümü burdan ora, ordan bura çaldım. Suallar yaxamı buraxmırdı. Hanı vətən!.. Hanı yaşıl vətən? Hanı ellər? Hanı çaylardakı göz yaşı kimi duru sular? Və hanı... Beləcə, mən də oldum Əhməd Hanı!*

*Amma ürəyim oradaydı, qürbətin ağacları vətən ağacları, yad ölkənin adamları vətən adamları... olmadılar mənə. Doğru-su, özümü aldada bilmədim.*

*Ilk şer müəllimim Anam olmuş, onun danışdıqları şerlərdən öyrənirdim. O, Azərbaycanın əsl ismətli qadınlarından biri idi. Rəhmətlik Anam deyərdi: «Ah... Vətən... Vətən...» Sonra ah çəkib sözünə davam edərdi: «Yox, deyəsən, mən qürbətdə öləcəyəm!..» İşə baxın, bir gün Anamla Atam vətənə sarı yola duşdülər! Beş gündən sonra - Alov!..*

*Bəli, buyurun! Anam 2000-ci ildə Təbriz şəhərində dünyaya göz yumdu və məni bu dəhşətli dünyada yalqız qoydu. Can verən saatda mən haray çəkdim: «Ay baxır, mən baxıram, gözləri baxmır nənəmin...» Dağlardan, bağlardan, çaylardan sorurdum: «Anam hanı, Vətən?..»*

*Bağlar, çaylar, ellər və yurdlar... Aman, göz yaşının əlindən...*

*Hörmətli Ramazan QAFARLI, təəssüflər olsun ki, mən və mənim kimi qürbətdə yaşayanlar dilimizin çox sözlərini unutmuşuq. Bu, acı deyilmi?*

*Şerlərimi olduğu kimi jurnallarınızda çap edə bilərsiniz. Onlarda imla yalnışları varsa, lütfən düzəldin.*

*Azərbaycan folklorunun laylalarını unutmayın, tövsiyə edin, gəlinlərimiz beşik başında həmişə körpələrə oxusunlar. Mənim də əlimdən yapışın, yurdumda yerimək istəyirəm.*

***Dilimiz varlığımızdır! Sağ olun. Sevəniniz: Əhməd Hanı***

**Vətən dağları**

Barlı vətən dağları,
Narlı vətən dağları!..
Olun mənim kəfənim,
Qarlı vətən dağları.

Şirin-duzlu vətənim,
Qarlı, buzlu vətənim...
Sönməsin ay-guneşin,
Ay ulduzlu vətənim!

**Qarabağ**

Bu toz-torpaq nədir?
Kimdilər atıcılar?
Yurd bizimdir,
Dil bizimdir.
Oba bizim,
El bizimdir.
Nə isteyirlər bunlar?

Laçın bizim, bağ bizimdir,
Ha! Bu Qarabağ bizimdir,
Nə isteyirlər bunlar?

**Nisgillər**

Qızıl torpaq - qızıllı dağ...
Yaşıl yarpaq.
Yaşıllı bağ.
Dəniz sakit, gəmi düm ağ,
Nə çox nisgil ki, var məndə.

***

Gecə aylı, işıq günlər,
Sazın çala aşıq günlər.
Dəniz, mən, yar, qayıq... günlər
Nə çox nisgil ki, var məndə.

***

Büşqu, mişar yox olsunlar,
Ağaclıqlar çox olsunlar.
Ac qarınlar tox olsunlar,
Nə çox nisgil ki, var məndə.

***

Söyüd, kölgə, barış, istək,
Qara qansız, təmiz ürək,
Alov, təndir, fətir, çörək...
Nə çox nisgil ki, var məndə.